


# Dünyaya səs salan Bakı Enerji Həftəsi

***Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri dünya mediasının diqqət mərkəzindədir.***

***Mötəbər tədbir bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderləri bir araya gətirir, Azərbaycanı dünya ölkələri sırasında yüksək səviyyədə inkişaf etmiş dövlət olaraq tanıdır.***

Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən xarici iştirakçılardır. Sərgi sahəsinin 40 faizi tanınmış şirkətlərə, sərgilərin daimi iştirakçılarına verilib. Bütün bunlar isə ondan xəbər verir ki, tədbir coğrafi baxımdan geniş regionu əhatə edib.

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin Azərbaycanın enerji sektoruna birbaşa xarici sərmayənin cəlb edilməsində çox vacib rol oynadığını bildirib. Ölkə başçısı Azərbaycanın qaz təchizatı məsələlərində də özünü etibarlı tərəfdaş olaraq sübut etdiyini nəzərə çatdırıb.

Sərginin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar daxil edilib. Sərgidə süni intellekt, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim olunub.

Birləşmiş Ərəb Əmirliklərinin "Emirates" rəsmi informasiya agentliyi, "24 ae.", "Əl İttihad", "Şarjah 24", "Mediaoffice. Abu-Dabi", "Əl Xalic", "uae barq" qəzet və portalları, habelə "CNN arabic", "Abu Dabi1" telekanalları, Səudiyyə Ərəbistanının "Saudigulffprojetcts" nəşri Bakı Enerji Həftəsi çərçivəsində Prezident İlham Əliyevin BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan bin Əhməd Əl-Cabiri qəbul etməsi, habelə bu mötəbər tədbirdə çıxışının əsas məqamları barədə məlumat veriblər.

BƏƏ və Səudiyyə Ərəbistanı mediası, həmçinin Prezident İlham Əliyev və BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri, COP28-in sədri Sultan bin Əhməd Əl-Cabirin üç günəş və bir külək enerjisi layihəsinin təməlqoyma mərasimində iştirakı haqqında geniş məqalələr dərc edib. Ərəb ölkələri ictimaiyyətinin diqqətinə çatdırılıb ki, bu layihələr təmiz enerji sahəsində dünya lideri olan "Masdar" və Azərbaycanın milli neft şirkəti SOCAR ilə birgə reallaşdırılacaq.

Məqalələrdə Azərbaycanın COP29-a ev sahibliyi etməyə hazırlaşdığını, hazırkı COP prezidenti Birləşmiş Ərəb Əmirliyinin COP29-un sədrliyi ilə sıx əməkdaşlıq etməyə davam edəcəyi bildirilib.

Bakı Enerji Həftəsinin açılış mərasimi haqqında Qazaxıstanın "Kazinform" agentliyi, Çinin "Siamnews", "Chinamoneynerqork" portalları, Avstraliyanın AAP informasiya agentliyi, Tailandın "Thailand business" nəşri, Almaniyanın "Finanznachritchen", Kanadanın "Newswire", İtaliyanın "İnarmazione", İngiltərənin "Morningstar", Tayvanın "Taiwannews" elektron qəzetləri məqalələr dərc ediblər. Məqalələrdə qlobal enerji böhranı dövründə Azərbaycanın ev sahibliyi etdiyi bu mötəbər tədbirin 30-dan çox ölkədən 300-dək şirkəti bir araya gətirdiyi qeyd olunub. Dünya mediası Prezident İlham Əliyevin çıxışında Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı, postmüharibə dövründə orada 270 meqavat həcmində hidroelektrik stansiyaların istifadəyə verilməsi və 3-5 il ərzində bu rəqəmin 500 meqavata çatacağı barədə fikirlərini də yayımlayıb.

Qlobal miqyasda investorların əsas media orqanı olan "Investor Observer" nəşri, Fransanın "Le Lezard" elektron qəzeti, Asiya ölkələri sahibkarlarının media orqanı "Enterpise Asia", ABŞ-ın "Central Charts", "Street Insider" portalları, Səudiyyə Ərəbistanın ingilis dilində nəşr olunan "GoalFore Advisory" analitik iqtisadi jurnalı, İraqın "Əl Ayn", Pakistanın "Press Release Hub" saytlarında da jurnalistlərin qlobal enerji təhlükəsizliyinin barometri adlandırdıqları Bakı Enerji Həftəsinin açılışında Azərbaycanın dövlət başçısının çıxışından əsas məqamlar dərc edilib.

Prezident İlham Əliyev 4 iyun tarixinin sadəcə iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacağını, həmçinin qardaş BƏƏ-nin "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də əlamətdar olduğunu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirdiyini bildirib.

Dərc edilən məqalələrdə "Şahdəniz" qaz yatağının əhəmiyyətindən danışan Prezident İlham Əliyev hazırda Azərbaycanın təbii qaz ixracının artdığını, bu il ixracatın 24 milyard kubmetrdən artıq olacağını bildirib və əlavə edib ki, səkkiz ölkə Azərbaycandan qaz alır, bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırıb və bu, həqiqətdir. Ölkə başçımız vurğulayıb ki, hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycanın təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazadadır.

Məqalələrdə enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsi olduğu, idxaldan asılı olan ölkələrin ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtardığı, Azərbaycanın simasında məhz bunu əldə etdikləri qeyd olunub. Prezident İlham Əliyev vurğulayıb: "Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik".

Həmçinin Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun çoxtərəfli enerji diplomatiyası üzrə baş müşaviri Harri Kemian, Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru xanım Kristina Lobillo Borrero, Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) Baş direktoru Françesko La Kameranın da Bakı Enerji Həftəsinin açılışında çıxış etdikləri, habelə bu mötəbər tədbirə dünyanın nəhəng enerji şirkətlərinin rəhbərlərinin qatıldıqları diqqətə çatdırılıb.

Tədbir eyni zamanda "yaşıl enerji" sahəsində potensialın qiymətləndirilməsi və yeni əməkdaşlıq imkanlarının tapılmasına xidmət edəcək. Bakı Enerji Həftəsi fərqli dövlət və hökumət rəsmilərinin bir araya gəlməsinə və qlobal enerji məsələlərinin müzakirəsinə imkan yaradır. Bu da nəticə etibarilə enerji sahəsində dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi, yeni ideyaların müzakirə olunması və bu sahədə perspektiv addımların atılmasına gətirib çıxarır. Həmçinin innovasiya və texnologiyanın təqdimatı baxımından Bakı Enerji Həftəsi çox vacibdir. Enerji sahəsində ən mühüm məqamlardan biri innovativ dəyişikliklərdir. Bakıda keçirilən bu forum həm də yeni texnoloji innovasiyaların şirkətlər tərəfindən təqdim edilməsinə, IV Sənaye İnqilabının nəticələrinin müzakirəsinə imkan yaradır. Bu baxımdan, regional və qlobal əhəmiyyət daşıyır. Azərbaycanın bu sahədəki potensialı ilə yanaşı, eyni zamanda gücünü göstərən əsas faktorlardan biridir.

Bakı Enerji Həftəsi Azərbaycanın enerji imkanlarının yenidən təqdim olunması və xüsusən regionun, eləcə də Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın rolunun artmasını şərtləndirən faktorlar baxımından da əhəmiyyətlidir.

Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru xanım Kristina Lobillo Borrero Azərbaycanın regionda əsas oyunçu olmasını və Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm rolunu vurğulayıb. Avropalı qonaq alternativ enerji sahəsində Azərbaycanın çox böyük imkanlara sahib olmasından danışaraq ölkələr arasındakı qarşılıqlı əməkdaşlığın "yaşıl enerji"yə keçid prosesini daha da sürətləndirdiyini bildirib. Eyni zamanda Azərbaycanı yaxın vaxtlarda bütün dünya üzrə 2030-cu ilədək bərpaolunan enerji tutumunu 3 dəfə, enerji səmərəliliyini isə 2 dəfə artırmağa dair Qlobal Öhdəliyə və bütün dünya üzrə cari onillik ərzində metan emissiyalarını minimum 30 faizə qədər azaltmağa dair Qlobal Metan Öhdəliyinə qoşulması münasibətilə təbrik edib.

Göründüyü kimi, Avropa İttifaqı Azərbaycanın tək enerji mənbələrindən bəhrələnmir, həm də ölkəmizin bu sahədə apardığı siyasətdən örnək götürür. Azərbaycan üçün prioritet ətraf mühitin qorunması və ekoloji tarazlığın bərpasıdır. Məhz ölkəmizin iqtisadi siyasətini buna uyğun qurması beynəlxalq aləm üçün nümunədir. Bakı Enerji Həftəsi göstərdi ki, qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə və bu sahədə innovativ metodların tətbiqində həm ABŞ, həm Aİ, həm Türkiyə, həm də digər ölkələr Azərbaycanı dəstəkləyirlər.

Tədbir Azərbaycanın dünyaya təklif və təqdim etdiyi "yaşıl enerji" ilə bağlı perspektivləri özündə əks etdirdi. Azərbaycan dövləti "yaşıl enerji"nin istehsalında birbaşa iştirakçı, istehsalçı və investordur. Ən əsası da Azərbaycan bu sahədə əldə etdiyi uğurları yüksək səviyyədə beynəlxalq aləmə təqdim edir. Prezident İlham Əliyev çıxışında bu məsələ ilə bağlı qeyd edib: "Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq".

Ölkə başçımız, həmçinin COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edilə biləcək ən böyük nəticənin qarşılıqlı ittihamlara son qoyulması olacağını bildirib: "Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik".

**Bayram SALMANOV,**
**"Respublika".**